# Bəstəkar Rüfət Ramazanov

**Şərq xalqları arasında qədim və orta əsrlərdən etibarən mədəni əlaqələr mövcud olmuşdur. Bu, xüsusən musiqi sahəsində özünü daha aydın göstərir. Biz müasir dövrümüzdə də bu əlaqələrin bariz nümunəsi kimi martın 14-dən 21-dək Bakıda Heydər Əliyev fondu və Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən təşkil olunan "Muğam aləmi" II Beynəlxalq Muğam Festivalında müşahidə etdik.**

# Klarnet, dəf və violin üçün "Tərzi-muğam" miniatürü

Festival çərçivəsində "Muğam və avanqard" adlı kamera musiqisinə həsr olunmuş konsertdə bir çox əsərlər ifa edildi. Bunlardan xüsusən, R.Ramazanovun "Tərzi-muğam" adlı klarnet, dəf və violin üçün miniatürünü xüsusi qeyd etmək istəyirəm. Gənc bəstəkar ilk dəfə olaraq kamera musiqisində dəf alətindən istifadə etmişdir.

Ümumilikdə əsərə nəzər salaq. Niyə bəstəkar məhz kamera musiqisinə müraciət etmişdir? Buna bəstəkarı sövq edən, muğamın xanəndə ansamblındakı abu-havasını yaradan kamera janrına xas bir çox xüsusiyyətlərdir. Məhz kamera musiqisinə melodik intonasiyanın, ritmin və dinamik ifadə vasitələrinin bütün təfsilatı ilə verilməsi, tematik materialın geniş inkişafı xasdır.

Lakin digər tərəfdən kiçik tərkibin olmasına baxmayaraq böyük söz demək və fikri tamlığı ilə təcəssüm etdirmək nə dərəcədə mümkündür. Kamera musiqisinin insana xas lirik emosiyaları, daxili hissləri bütün incəlikləri ilə tərənnüm etmək kimi xüsusiyyətlərə malik olması onun muğam kimi qədim tarixli bir janrla sintez olunmasına imkan verir. Çünki öz növbəsində muğamın da fitrətini lirika təşkil edir və bu cəhət etibarilə əsrlər boyu öz varlığını qoruyub saxlayan muğam insanların qəlbində öz təsdiqini tapır.

R.Zöhrabov haqlı olaraq qeyd etmişdir: "Məhz lirizm xalqımızın milli bədii təfəkkürünün, psixologiyasının xüsusi keyfiyyətidir". Bəstəkar məhz belə spesifik xüsusiyyətlərlə muğamı təcəssüm etdirərək, əsərdə heç bir muğamdan sitat gətirməmiş, sırf muğamın əsas konturlarını, ifadə tərzini, forma quruluşunu saxlamış və onu müasir musiqinin qanunauyğunluqları ilə sintez etmişdir. Yəni əsərin intonasiya quruluşu muğamın melodik modelini ifadə edən, yalnız heç bir sitat olmayan kompozisiya xəttidir.

Əsərin ilk xanəsindən başlayaraq melodik nümunə sanki mozaika prinsipi əsasında qurulmuşdur. Ayrı-ayrılıqda mikroepizodlar yalnız əsas melodik xəttin alətlər arasında paylaşdırılmış hissələri kimi qavranılır. Ümumi səslənmədə isə bu mikroelementlər vəhdət şəklində əsas ideyanı ifadə edir. Bu da muğamda tematik inkişaf prosesinə xas prinsipi, muğam ansamblındakı alətlərin partiyalarının praktiki olaraq eyni olmasını və bir-birini tamamlaması ideyasını təsdiq edir. Burada əsas ideya-muğamın ifadə tərzinin məhz müasir musiqiyə xas formaquruluşu daxilində verilməsidir. Belə ki, müəllif bütün bu ifadə vasitələrindən istifadə edərək muğamın səslənmə effektinə nail ola bilmişdir.

Bəstəkar burada formaquruluş kimi modallığa müraciət edir. Modallıq müəllif tərəfindən əvvəlcədən konseptual düşünülmüş şəkildə qurulmuş qammavari sırada özünü göstərir. Bu, müəyyən mənada 12 tonlu sistemin qanunauyğunluğunu xatırladır. Müəllif burada da muğamın konsepsiyasını qoruyub saxlaya bilir. Əsərdə temperasiya çərçivəsi daha da genişləndirilmişdir.

Müəllif alətlər vasitəsilə muğama, ümumilikdə Şərq musiqisinə xas, lakin eyni zamanda müasir musiqi ifadə vasitəsinin elementinə çevrilən mikroxromatizmlərin yəni 1/4 tonların səslənməsinə nail ola bilmişdir. Partituraya nəzər salsaq, görərik ki, klarnet və violinin ifasına tapşırılan mikroxromatizmlər əsasında qurulan ləngərli qlissando çərçivədaxili nümunələr əsasında ardıcıllıqla improvizə olunaraq səslənir.




Bu xüsusiyyət müasir musiqiyə xas olan improvizə təfəkkürünü ifadə edən və müəyyən fon yaradan vasitədir. Lakin bu improvizəliliyə baxmayaraq nümunələr müəllif tərəfindən xüsusilə düşünülmüş, səs - tembr baxımından ölçülmüş və müəyyən mənada aleotorik təfəkkürə tabe olan bir priyom kimi qavranılır. Yəni ifaçılara çərçivədaxili nümunələrin sərbəst yozulmasına imkan verilir.

Əsərin özünəxas cəhətlərindən biri də dəfin istifadə olunmasının məqsədəuyğunluğudur. Bildiyimiz kimi əsrin əvvəllərindən belə indiyədək qorunub saxlanılan üçlüyün tərkibi - xanəndə-qavalçalan, tarzən və kamançaçalandan ibarət olub. Bəstəkar klarnet və violin ilə paralel olaraq əsərə dəf alətini daxil edərək dinləyici qarşısında vizual olaraq şifahi-professional musiqinin ifaçıları olan həmən "üçlüyün" zahiri görünüşünü yaratmağa çalışır və nəinki zahirən hətta daxilən onların ifa manerası milli alətlərimizin ifa manerasını xatırladır.




Alətlər arasında olan tembr təzadlığı da məqsədəuyğundur. Violin simli alət olduğuna görə onun ifa manerası kamançanın ifa üslubunu təqlid edir. Məhz onun partiyasında keçən orqan punktu yəni təkrarlanan səs və onun fonunda olan melodik hərəkət bizdə kamançanın təəssüratını yaradır.

Məsələn, burada keçən orqan punktunun "dəm" saxlaması xalq çalğı alətləri orkestrində olduğu kimi həm pauzaların doldurulması üçün, həm də alətlərin köklənməsi zərurətini daşıyır. Məhz bu saxlanılan lya notu mücərrəd maye rolunu oynayaraq bütün əsər boyu səslənir. Hətta klarnetin improvizəsi bu not ətrafında dolanmaqla onun təsdiqinə bağlıdır.




Burada alətlər arasında olan imitasiya da özünü bariz şəkildə göstərir.Belə bir imitasiya tar ilə kamança arasında olan təqlidə bənzəyir, yəni qeyri-statikdir.

Klarnetin burada rolu maraqlıdır. O iki alət arasında olan individual, virtuoz bir xəttdir. Bir tərəfdən o violini tamamlayır, digər tərəfdən isə dəfi hazırlayır. Alətlərin vəhdət şəkildə səslənməsi tembr təzadlığı yaradır. Lakin bu təzada baxmayaraq klarnet, violin və dəfin arasında mübahisəli dialoq gedir. Bu, Şərqlə Qərbin dialoqudur.

Qeyd etmək lazımdır ki, dəf əsərin forma quruluşunda aparıcı rol oynayır, çünki, bəstəkar muğamın ifadə tərzini qorumaqla yanaşı, onun ciddi planını da saxlamışdır. Məlum olduğu kimi dəfin 2 növü mövcuddur. Zil dəf və bəm dəf.

Bu növlər tonallıq etibarı ilə fərqlənirlər. İfadan gördüyümüz kimi burada müəllif klarnet və violinin diapozonunu nəzərə alaraq zil dəfdən istifadə edir. Hər bir improvizə hissəsi ciddi ritmli rənglə əvəz olunur.Rəngi tərənnüm edən intonasiya çox sadə quruluşa malik olsa da eyni zamanda həm violin, həm də klarneti 6/8 ölçüyə tabe edir. Lakin bütün bu ciddiliyə baxmayaraq dəfin 6/8 ölçüsünü ifa etmə manerasında da improvizəliyin müəyyən elementləri vardır.

Bu alətin əsərdə istifadə olunma üsullarına da bəstəkar çox yaradıcı yanaşır. Bu əsərdə bəstəkarın yaradıcılığında olan dinlə bağlılıq özünü bariz şəkildə göstərir. Bu miniatürdə bəstəkar rəngin ritmində 6/8 ölçüsü ilə sufi fəlsəfəsində olan arasıkəsilməyən dövr anlayışına işarə etmişdir.

Bizi belə düşünməyə ifaçının ifa zamanı etdiyi jestikulyasiyalar və ifa tərzi vadar edir. Bəstəkar dinləyicidə bu ritm əsasında sufi rəqsinin təəssuratını yaratmağa nail olur. Əsərdə musiqinin ritmik xətti belə sufi təfəkkürünün ideya həlli ilə uyğunlaşır. Sufi musiqisində olan ritmik xəttin dövr prinsipi burada alətlərin ifasında da qlissando xarakterli (1/4 ton) ləngər priyomu ilə xarakterizə olur. Müəllif ifaçıya ciddi ritm verməsinə baxmayaraq, ona öz təxəyyülündən belə istifadə etmək imkanı yaradır.




Zahirən əsər Şərqlə Qərbin dialoqunu özündə təcəssüm etdirir. Klarnet ilə violin Qərbi, dəf isə Şərqi təmsil edir. Bu mübahisədə dəfin violinin götürdüyü orqan punktu əsasında vurduğu sonuncu zərbə Şərqin qalibiyyətini təmsil edir.




**Dəfin ilk dəfə olaraq belə rakursda istifadəsi müəllifin yaradıcılığında perspektivlər açır. Belə ki, bu, müəllifin növbəti əsərlərində də adıçəkilən alətin müxtəlif interpretasiyalarda istifadə edilməsində ilk addımıdır.**

● **Lətifəxanım ƏLİYEVA,**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

**Резюме**

Рассматриваемой статье дается анализ миниатюры Р.Рамазанова "Тарзи-мугам" написанной для кларнета, дефа и виолино. Р.Рамазанов как представитель современной Азербайдъанской музыки впервые использовал в камерной музыке инструмент деф, который ассоцировал классический состав с народным. Так как произведение содеръит в себе елементы как современной музыки так и формообразующие елементы дястгяха.

**Summary**

In this considered article is given an analyse of the miniature -"A ` la mugham" of R. Ramazanov, which is written for a clarnet, def and violin. R.Ramazanov as the representative of modern Azerbaican music used for the first time in chamber music national instrument -"def", which the classical structure the national associates. As product this piece comprises elements, as modern music, and form elements of destgah.